# MÜBARİZ KEŞİKDƏ

7 noyabr 2019-cu il
Cümə axşamı
№ 43 (3458)

1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV PAYTAXTIN ŞƏFAYƏT MEHDİYEV KÜÇƏSİNİN TBİLİSİ PROSPEKTİNDƏN LANDAU KÜÇƏSİNƏDƏK OLAN HİSSƏSİNDƏ YENİDƏNQURMADAN SONRA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞ OLUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də paytaxtın Yasamal rayonunda Şəfayət Mehdiyev küçəsinin Tbilisi prospektindən Landau küçəsinədək olan hissəsində yenidənqurmadan sonra görülən işlərlə tanış olub.

Görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov dedi:

-Möhtərəm cənab Prezident, xoş gəlmisiniz. Yasamal rayonundakı Şəfayət Mehdiyev küçəsi 2,4 kilometr uzunluğundadır. Bu küçənin Bəxtiyar Vahabzadə küçəsi ilə Əbdürrəhim bəy Haqverdiyev küçəsinin kəsişməsində 800 metr ərazi tam yaşayış və qeyri-yaşayış obyektləri ilə zəbt olunmuşdu.

**Prezident İlham Əliyev:** Bu hissə?

**Saleh Məmmədov:** Bəli, bu hissə, cənab Prezident. Bu maşınlar dayanan hissədən o yanan işığa qədər tam yaşayış evləri idi. Hamısı köçürüldü və Sizin göstərişinizlə kompensasiya ödənildi.

**Prezident İlham Əliyev:** Lazımi səviyyədə verildi kompensasiya?

**Saleh Məmmədov:** Kompensasiyaları tam ödənildi, heç bir şikayət olmadı. Küçənin 800 metrlik bu hissəsi tam yenidən quruldu. İndi 18 metr enində 4 cərgəli avtomobil yoludur. Əvvəllər Cavid prospekti ilə gələn avtomobillər Cavid parkının ətrafını dolanıb Tbilisi prospektinə gedirdilər. Bakıda nəqliyyatın hərəkətinin yaxşılaşdırılması ilə bağlı Sizin göstərişinizə əsasən görülən işlər nəticəsində indi həmin nəqliyyat vasitələri birbaşa Şəfayət Mehdiyev küçəsi ilə Tbilisi prospektinə çıxacaq.

**Prezident İlham Əliyev:** Əvvəllər çıxış yox idi?

**Saleh Məmmədov:** Xeyr, əvvəllər çıxış yox idi. Yalnız 5 metr enində məhəllədaxili yol var idi. Bunlar sökülən evlərin şəkilləridir. Sizin ayırdığınız vəsait hesabına həmin evlərin hamısı köçürüldü.

**Prezident İlham Əliyev:** Bu yol çox ensiz idi, burada qurtarırdı, bu tərəfə yol yox idi?

**Saleh Məmmədov:** Bəli, ancaq bu məhəllədəki binalara girmək üçün 5 metr enində yol var idi.



**Prezident İlham Əliyev:** Yaxşı layihədir.

**Saleh Məmmədov:** Sizin göstərişinizlə həyata keçirilib. Tıxaclar tam aradan qalxıb. Cənab Prezident, bu yol olmayanda, bütün avtomobil axını metronun Elmlər Akademiyası stansiyasının qarşısından keçirdi. Bu şəkillərdə göründüyü kimi, pik saatlarda burada tıxaclar yaranırdı. Artıq bu hissədən axın götürüləcək. İndi tam 4 cərgəli yoldur. Həm də Tbilisi prospekti ilə birbaşa əlaqələndirilir. Gözəl bir yol sistemi yarandı.

**Prezident İlham Əliyev:** Burada yaşayan vətəndaşlara lazımi şərait yaradıldı?

**Saleh Məmmədov:** Bəli, cənab Prezident, istədikləri vəsait tam ödənildi, hamısı da razı qaldı.

**Prezident İlham Əliyev:** Ancaq bu evlərə gedə bilərdilər də?

**Saleh Məmmədov:** Ancaq bu evlərə. Məhəllədaxili küçələr idi. İndi artıq 2,4 kilometr uzunluqda gözəl bir prospekt yaranıb. Bundan əlavə, cənab Prezident, 2019-cu ilin investisiya proqramlarında nəzərdə tutulan, həmçinin büdcə fondundan ayırdığınız vəsait hesabına Bakı şəhərində və qəsəbələrində bir neçə yol tam çəkilib və istismara hazırdır. Bu yollardan biri Xocasən-Lökbatan yoludur, hansı ki, başlanğıcını Sədərək ticarət mərkəzindən götürür və Bakı-Şamaxı yolunun 9,5-ci kilometrliyinədək, "Coca-Cola" deyilən dairəyədək uzanır. Bu yol da indi tam hazırdır. Əvvəllər bu şəkillərdəki vəziyyətdə olub. İndi tam 4 cərgəli yoldur. Yolun ortasında ayırıcı beton zolaqlar qoymuşuq, 11,2 kilometrlik bu hissə istifadəyə tam hazırdır. Bundan əlavə, investisiya proqramından ayrılmış vəsait hesabına Sabunçu rayonunun Bakıxanov stansiyasından Suraxanı rayonunun Qaraçuxur qəsəbəsinə gedən 5,4 kilometrlik yolu bu il təmir etmişik, istismara tam hazırdır.

**Prezident İlham Əliyev:** Bu, əvvəlki vəziyyətidir?

**Saleh Məmmədov:** Bəli, əvvəlki vəziyyətidir. İndi bu yolu bu vəziyyətə gətirmişik.

**Prezident İlham Əliyev:** Genişləndirmə aparıldı?

**Saleh Məmmədov:** Bəli, genişləndirmə aparıldı və yeni səkilər, piyada keçidləri yaradıldı. Bakı şəhərinin Azadlıq prospektindən Yeni Avtovağzala qədər olan yolun 6 kilometrlik hissəsi genişləndirildi. Ensiz bir yol idi. Nəqliyyat axınını yaxşılaşdırmaq üçün bu yol da Sizin göstərişinizlə 4 cərgəyə genişləndirildi. Burada qovşaqlar yaradıldı, Yeni Avtovağzal Binəqədi şosesi ilə birləşdirildi.

Cənab Prezident, Əhmədli qəsəbəsində, Zığ şosesindən Neapol dairəsinədək olan küçə də ikigedişli idi. Uzunluğu 3,2 kilometr olan bu yolu da Sizin göstərişinizlə 4 cərgəli etmişik, istismara tam hazırdır.

**Prezident İlham Əliyev:** Çox yaxşı işlər görmüsünüz. Bakı şəhərinin bütün küçələri ən yüksək standartlara cavab verməlidir. Ona görə harada ki, problemli yerlər var, onların da siyahısını tutun və biz həm bu il, həm də gələn il onları da təmir edəcəyik. Mənə məlumat verilir ki, Bakı-Sumqayıt yolunda tez-tez tıxaclar olur.

**Saleh Məmmədov:** Bəli, böyük tıxaclar olur.

**Prezident İlham Əliyev:** Baxmayaraq ki, indi qatar da işləyir və vətəndaşların bir hissəsi qatardan istifadə edir, yenə də tıxaclar var. Ona görə baxın, bu yolu genişləndirmək üçün texniki imkan olmalıdır, layihə hazırlayın.

**Saleh Məmmədov:** Cənab Prezident, layihə hazırlayıb Sizə təqdim edərik.

**Prezident İlham Əliyev:** Biz o yolu genişləndirməliyik, lazımi vəsait ayırarıq. Bir də mən sizə göstəriş vermişdim ki, qəsəbədaxili yollar, Bakıətrafı qəsəbələrin yolları da abadlaşdırılmalıdır. Siz ilkin təklifləri göndərmisiniz, baxılacaq və müvafiq göstərişlər veriləcək, sərmayə ayrılacaq ki, biz Bakı qəsəbələrində bütün daxili yolları abadlaşdıraq. Torpaq yollar asfaltlanmalıdır. Bakı şəhərində, o cümlədən onun qəsəbələrində torpaq yol olmamalıdır.

**Saleh Məmmədov:** Cənab Prezident, Sizin göstərişinizlə elə də olacaq. Qəbulunuzda olarkən verdiyiniz tapşırığa əsasən biz bəzi qəsəbələrdə yolların torpaq əsaslarının tikintisinə başlamışıq.

**Prezident İlham Əliyev:** Bilirəm, siz başlamısınız. Əvvəl Kürdəxanı qəsəbəsinin yollarını abadlaşdırdınız. İndi digər qəsəbələr növbədədir.

**Saleh Məmmədov:** Pirşağı, Zabrat, ondan əlavə, Xəzər rayonunda, Binə qəsəbəsində...

**Prezident İlham Əliyev:** Xəzər rayonunda Mərdəkan, Şüvəlan və digər qəsəbələrdə biz yolların hamısını bərpa edəcəyik.

**Saleh Məmmədov:** Sizin göstərişinizə bütün torpaq yolların hamısını mərhələlərlə asfaltlayacağıq.

## BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ İLƏ GÖRÜŞÜB

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 31-də Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında həm ənənəvi enerji sahəsində, həm də qeyri-neft sektorunda əməkdaşlığın geniş spektri müzakirə edildi. Ölkəmizin BP şirkəti ilə 25 ildən çoxdur ki, səmərəli əməkdaşlıq etdiyi qeyd olundu. Vurğulandı ki, hazırda Azərbaycanda qeyri-neft sektorunda Böyük Britaniya şirkətləri üçün yeni imkanlar açılır.

Birinci vitse-prezident Mehriban Əliyeva ölkələrimiz arasında müxtəlif sahələrdə, xüsusilə də humanitar sahədə əlaqələrin inkişafında Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rolunu yüksək qiymətləndirdi.

Baronessa Emma Nikolson Azərbaycan ilə Böyük Britaniya arasında uğurlu əməkdaşlığın qurulduğunu bildirərək, bundan sonra da əlaqələrimizin inkişafına töhfə vermək üçün səylərini davam etdirəcəyini vurğuladı. Dünyanın aparıcı neft şirkətlərindən biri olan BP-nin humanitar, o cümlədən təhsil, səhiyyə, ətraf mühitin mühafizəsi sahələrində də əməkdaşlıq etməkdə maraqlı olduğunu bildirdi.

Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi ölkəmizin inkişafında Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi rolu olduğunu vurğuladı.

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva oktyabrın 31-də Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsindəki 10 saylı sanatoriya tipli internat məktəbində və Nərimanov rayonundakı 64 saylı körpələr evi-uşaq bağçasında həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.**

**Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı oktyabrın 30-da Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə İsmayıl Məhərrəm oğlu Vəliyevin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri oktyabrın 31-də Şəmsəddin Hüseynqulu oğlu Xanbabayevin Xaçmaz Rayon İcra Hakimiyyətinin, Qoca Çərkəz oğlu Səmədovun Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifələrindən azad edilmələri haqqında sərəncamlar imzalayıb.**

❖❖❖❖❖

***Oktyabrın 31-də Azərbaycan Prezidenti İlham Əliyev Elnur Şahbaz oğlu Rzayevin Xaçmaz Rayon İcra Hakimiyyətinin, Anar Aqil oğlu Tağıyevin Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı təyin olunmaları haqqında sərəncamlar imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri oktyabrın 31-də kənd təsərrüfatı işçilərinin mükafatlandırılması haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyevin 1 noyabr 2019-cu il tarixli sərəncamları ilə Samir Rafiq oğlu Nuriyev Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri vəzifəsindən azad edilib, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri təyin olunub.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı noyabrın 2-də Azərbaycan musiqi sənətinin inkişafında xidmətlərinə görə Yalçın Vasif oğlu Adıgözəlovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Noyabrın 4-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul edib.***

## DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Daxili İşlər nazirinin müavini İsmail Çataklını qəbul edib.**

Qonağı salamlayan nazir V.Eyvazov dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin daha da dərinləşdiyini məmnunluqla vurğulayıb.

Cəmiyyət həyatının bütün sahələrində olduğu kimi, ölkəmizdə təhlükəsizlik sferasının da möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə xüsusi önəm verildiyini diqqətə çatdıran general-polkovnik Vilayət Eyvazov bu gün Azərbaycan Polisinin, Daxili Qoşunların yüksək peşəkar səviyyədə fəaliyyət göstərdiyini, ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə aparıcı hüquq-mühafizə orqanı kimi öz yerini tutduğunu xüsusi qeyd edib, qazanılmış uğurlarda Türkiyə Jandarm Qüvvələrinin, Türkiyə Polisinin də danılmaz rolunun, xidmətinin olmasına diqqət çəkib. Buna görə Türkiyə Daxili İşlər Nazirliyinin, o cümlədən Jandarm Qüvvələrinin rəhbərliyinə və bütün mənsublarına təşəkkürünü bildirən Daxili İşlər naziri V.Eyvazov Türkiyə Respublikasının Daxili İşlər naziri cənab Süleyman Soyluya salamlarını çatdırmağı nazir müavinindən xahiş edib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən Türkiyənin Daxili İşlər nazirinin müavini İsmail Çataklı respublikamıza ikinci gəlişindən, ölkəmizin sürətli inkişafından, sabitlikdən, əmin-amanlıqdan, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından məmnunluğunu diqqətə çatdırıb, qarşılıqlı faydalı işbirliyinin daha da genişlənməsinə bundan sonra da səy göstərəcəyini ifadə edib.

Dostluq və mehribanlıq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

*5 noyabr 2019-cu il.*

# İFTİXAR MƏNBƏYİ MƏBƏDİ



**Uşaqlığımız Sovetlər dönəminə düşdüyündən biz milli bayrağımızın nə vaxtsa başımız üzərində dalğalanacağına yalnız ümid bəsləmişdik. Bu gün müstəqil dövlətimizin üçrəngli bayrağının vüqarla dalğalanması dövlətimizin hər bir vətəndaşında qürur hissi yaradır. Uzun illər bunu gözləmişik.**

Bayrağımızı sevməyi, onunla fəxr etməyi övladlarımıza da böyük həvəslə aşılayırıq. Axı, gənc nəslin müstəqil dövlətimizin bayrağına hörmətlə, məhəbbətlə yanaşması ruhunda tərbiyəsi ən mühüm amillərdən biridir. Böyük, qədim bir xalq, müstəqil dövlət kimi varlığımızı təsdiq edən, milli dəyərləri simasında, özündə yaşadan üçrəngli bayrağımız bu gün artıq elə bir zirvədə qərarlaşıb ki, heç zaman enməyəcək, onu enməyə qoymayacayıq.

Üçrəngli bayrağımızın dövlət rəmzi kimi bərpası və yüksəldilməsi dövlətimizin olduqca çətin və şərəfli müstəqillik yollarında xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük mücadiləsinin nəticəsidir.

İndi bu bayraq Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, NATO, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı və digər bir çox beynəlxalq təşkilatlarda ən hörmətli ucalıqda dalğalanır. Ulu öndərin düzgün müəyyənləşdirdiyi siyasi strategiya nəticəsində müstəqil dövlətimiz bu təşkilatlarda və regional təşəbbüslərdə iştirakı ilə öz milli maraqlarını gerçəkləşdirir,dünya birliyinə töhfələrini verir. Milli dövlətçiliyimizin rəmzi olan bayrağımızın bu gün dünyada söz sahibləri ilə yanaşı dalğalanması dövlətimizin varlığının, dünya birliyindəki qüdrətinin təsdiqidir.

Dövlət başçımız cənab İlham Əliyev 2004-cü il iyunun 8-də “Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında” Əsasnaməyə edilmiş əlavə və dəyişiklikləri təsdiqləmişdir.”Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında” qanunun imzalanması Dövlət Bayrağına yüksək ehtiramın ifadəsidir.

***Möhtərəm Prezidentimiz 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə rəsmi ucaldığı 9 noyabr tarixini “Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü” kimi təsis etmişdir.***



Dünya durduqca bu möhtəşəm bayraq bütün azərbaycanlıların iftixar mənbəyi və məbədidir. Bu gün harada Azərbaycan adı anılırsa, orada qürurla bayrağımızın dalğalanmasını seyr edirik.

Bayraq bizim müstəqilliyimizin, dövlətçiliyimizin, milli varlığımızın ən qiymətli simvollarındandır.

**Bayraq Vətən qədər əzizdir, müqəddəsdir.**

*A.Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov oktyabrın 31-də Gəncə Şəhər Baş Polis İdarəsində daxili işlər orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirib.**

Daxili İşlər naziri əvvəlcə ulu öndər Heydər Əliyevin şəhərin mərkəzindəki abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub.



Daha sonra nazir Baş Polis İdarəsində Gəncə də daxil olmaqla respublikanın Qərb bölgəsinin 10 şəhər və rayonundan, eyni zamanda, həmin bölgədə məskunlaşmış qaçqın və məcburi köçkünlərdən qəbul üçün müraciət edən 34 vətəndaş ilə görüşüb. General-polkovnik V.Eyvazov onların polisin fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyərək, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün Nazirliyin aidiyyatı baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə öz həllini tapıb.

Tədbirdə iştirak edən şəxslər göstərilən diqqət və qayğıya, müraciətlərinə çevik reaksiyaya və həssas yanaşılmasına görə dövlət başçısına minnətdarlıq ediblər, onun ölkəmizin sürətli inkişafına yönəlmiş ardıcıl, məqsədyönlü və qətiyyətli siyasi kursunu bundan sonra da dəstəkləyəcəklərini vurğulayıblar.

Sonda nazir V.Eyvazov bölgənin ərazi polis orqanlarının qəbulda iştirak edən rəislərinə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu əsas vəzifələrdən birinin vətəndaş məmnunluğunun təmini olduğunu xatırladaraq bütün müraciətlərə operativ baxılıb qanuni qərarların qəbul edilməsini, hər bir struktur qurumda insanlarla münasibətdə etik davranış qaydalarına ciddi əməl olunmasını, onların qəbuluna daim xüsusi həssaslıqla yanaşılmasını, hüquq və azadlıqlarının, qanuni mənafelərinin yüksək səviyyədə qorunmasını, qeyd olunan işin rəhbər heyət tərəfindən gündəlik nəzarətdə saxlanılmasını tələb edib, bu istiqamətdə tapşırıq və tövsiyələrini verib. O, Azərbaycan Polisinin insanların güvənc yerinə çevrilməsinin, bütövlükdə cəmiyyətdə asayiş keşikçilərinin nüfuzunun daha da yüksəldilməsi yönümündə fəaliyyətin sistemli şəkildə davam etdirilməsinin zəruriliyini vurğulayıb.

*31 oktyabr 2019-cu il.*

**Azərbaycan Respublikasının Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov tərəfindən 2019-cu il noyabr ayının 30-da Sumqayıt Şəhər Polis İdarəsində Sumqayıt, Abşeron, Qobustan, Qubadlı, Zəngilan şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.**

**Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.**

**Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.**

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikası Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov tərəfindən 2019-cu il noyabr ayının 23-də Göyçay Rayon Polis Şöbəsində Göyçay, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Ucar, Kürdəmir, Ağdaş şəhər və rayonlarının sakinlərinin qəbulunun keçirilməsi nəzərdə tutulmuşdur.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# AZƏRBAYCAN 2018-ci İLDƏ TERRORÇULUQ ƏLEYHİNƏ FƏAL ÇALIŞIB

**"Azərbaycan hökuməti 2018-ci ildə Cənubi Qafqazda insan, pul və materialların yerdəyişməsi ilə məşğul olan terror qruplaşmalarının səylərinin qarşısını almaq, onları aşkarlamaq üçün fəal işləyib." Bu fikirlər ABŞ Dövlət Departamentinin ayrı-ayrı ölkələrin terrorla mübarizədə gördüyü tədbirlər barədə yaydığı hesabatda yer alıb.**

Hesabatın Azərbaycana dair "2018 Terrorist Incidents: There were no reported terrorist incidents in Azerbaijan in 2018" hissəsində respublikamızın terrorçuluğa qarşı fəal mübarizə apardığı bildirilir.

"Azərbaycanın hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri terror aktlarının qarşısının alınması ilə bağlı əməliyyatlar keçirib, terrorçuluqda şübhəli bilinənləri həbs edib, həmçinin xaricdəki terror qruplaşmalarının tərkibində döyüşənləri, terror qruplaşmalarına qoşulmaqda, maliyyə yardımı etməkdə şübhəli bilinənləri məsuliyyətə cəlb edib", - deyə sənəddə qeyd olunur.

ABŞ Dövlət Departamenti Azərbaycanda sabitliyin mövcud olduğunu xüsusi olaraq qeyd edib: ***"2018-ci il Azərbaycanda terror aktı qeydə alınmayıb. Azərbaycanda 2018-ci ildə maliyyə tranzaksiyalarına nəzarət üçün hüquq-mühafizə orqanlarının səlahiyyətlərinin genişləndirilməsi ilə bağlı qanunvericiliyə düzəliş edilib, hansı ki, hökumətin fikrincə, terrorçuluğun maliyyələşdirilməsində istifadə oluna bilər.***

***Azərbaycanın təhlükəsizlik xidməti və hüquq-mühafizə orqanları ölkə ərazisində terror aktlarının qarşısını almaq, aşkarlamaq qabiliyyətini kifayət qədər nümayiş etdirib. Terrorçuluqla mübarizə üçün məsuliyyət bir neçə dövlət orqanının üzərinə düşür.***

***Azərbaycanın Daxili İşlər Nazirliyi əsas hüquq-mühafizə orqanıdır və onun Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə nazirliyin antiterror səylərinə rəhbərlik etmək həvalə olunub.***

***Azərbaycan terrorçuların və cinayətkarların siyahılarından, o cümlədən limanlara giriş zamanı bioqrafiklər/biometrik yoxlamalardan istifadə edib. Azərbaycanın hüquq-mühafizə orqanları və təhlükəsizlik xidmətləri öz aralarında, həmçinin regional və beynəlxalq partnyorlarla informasiya mübadiləsi aparır".***

Qeyd edək ki, hesabatda Azərbaycanın ayrı-ayrı dövlət orqanları, onların strukturu barədə məlumat verilir.

Dövlət Departamentinin hesabatında, eləcə də Azərbaycanın Avropa Şurasının, ATƏT-in, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq qurumların üzvü olduğu, NATO-nun antiterror təşəbbüslərini alyansın "Sülh naminə tərəfdaşlıq" proqramına üzv ölkə qismində dəstək verdiyi də bildirilir. Qeyd edilir ki, Azərbaycan NATO-nun Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyası çərçivəsində bu ölkəyə sülhməramlılarını göndərib və Əfqanıstan Milli Ordusunun Etimad Fonduna ianə verib.

*Natiq Cavadov,*
*polis mayoru*

# BİR OVUC TORPAQ DA VƏTƏNDİR!

***1991-ci il dekabrın 23-ü. Gecə yarıdan keçib. İki körpə balasını bağrına basıb ailə başçısının yolunu gözləyir. Ömür-gün yoldaşının vaxtsız-vədəsiz gediş-gəlişlərinə öyrəşsə də ürəyi çox narahatdır, nəsə bir pis hiss var idi, ürəyində...***



Otuz bir yaşına 3 ay öncə qədəm qoymuşdu. Əsgəri xidmətini başa vurduqdan sonra Şuşa Rayon Malıbəyli kənd Polis Bölməsində komandir kimi xidmət edirdi **polis baş serjantı Cəsarət Mədətov**. Vətəninə, elinə-obasına bağlı oğul idi. Düşmənin üzərinə öz xidməti silahı ilə gedirdi. Hər zaman dostlarına da deyirmiş ki, torpağımızın bir ovucunu belə düşmənə verməməliyik. Çünki bir ovuc sonralar dağlar, düzlər olur. Çünki bir ovuc torpaq da Vətəndir...

Mehriban xanım da o gecə döyüşdü – ürəyi, hissləri, taleyi ilə...

Mehriban Quliyeva da o gecə şəhid verdi.

Ölümündən sonra “İgidliyə görə” medalıyla təltif olundu polis baş serjantı Cəsarət **Mədətov**.

Ömür-gün yoldaşının itkisindən sonra yurd həsrəti ilə üzləşdi Mehriban. Erməni quldurlarının Malıbəylini mühasirəyə aldığı bir vaxtda evini-eşiyini tərk edib meşələrə üz tutdu yurddaşlarımızla.

Cəsarəti itirdiyi gecə, dünya yalnız bir rəngə boyanmışdı. Bu, şəhid rəngi idi...

***Bu rəngli və rəngsiz dünyada hər bir şeyi itirmək mümkündür, bircə ümiddən başqa. İtirməyək ki, o ümidin işığında arzusunda olduqlarımıza yetişmək üçün yaşayaq...***

*A.Nəcəfova*

# ANONS

**20 noyabr Ümumdünya Uşaqlar Günü kimi qeyd olunur. Uşaq hüquqlarını müdafiə edən bu beynəlxalq sənəd BMT-nin 20 noyabr 1989-cu ildə keçirilən iclasında 193 ölkənin qərarı ilə qüvvəyə minib.**

**Azərbaycan tərəfindən BMT-nin Uşaq Hüquqları Konvensiyasının ratifikasiya edilməsinin 25 ili tamam olur...**

*Ətraflı gələn sayımızda.*

# "YERALTI ŞƏHƏR"İN BAYRAMI

**Çox az adam olar ki, yaşadığı illər ərzində bir dəfə də olsun metrodan istifadə etməsin. Axı, metro vasitəsilə uzun məsafəni qısa bir zamanda qət etmək mümkündür ki, bu da vaxt itkisinin qarşısını alır. Təhlükəsizliyin təmin olunduğu, ən müasir sistemlərlə təchiz olunmuş nəqliyyat vasitəsi kimi metrodan istifadə etmək vətəndaşlarda böyük məmnunluq yaradır.**

**Bakı metropoliteni 1967-ci ilin noyabrında qapılarını paytaxt sakinlərinin üzünə açıb. Həmin gün 5 stansiya istismara verilmişdir. Bu, keçmiş SSRİ-də beşinci, Yaxın Şərqdə isə ilk yeraltı elektrik dəmir yolu idi.**

O, vaxtdan keçən 52 ildə yeraltı yolların istismar fəaliyyətində xeyli dəyişikliklər olub. Gözəl, yaraşıqlı stansiyaların sayı artıb, metropolitenin texniki təhcizatı zənginləşib,-kadrları təkmilləşib. Metropolitenin vaqonlarının hamısı bu gün daşıma həcminin tələblərini yerinə yetirmək iqtidarındadır. Yollar, tunellər və oradakı bütün texniki qurğular təhlükəsiz hərəkəti təmin etməyə qadirdir.

Böyük strateji əhəmiyyət daşıyan Bakı metropoliteninin tikintisi, inkişafı, perspektivi də ulu öndər Heydər Əliyevin uzaqgörənliyinin, zəhmətinin bəhrəsidir. “Metro Bakı üçün böyük bir nemətdir, böyük bir sərvətdir”,-deyən ulu öndərin Bakı metropoliteninin bugünkü səviyyəyə çatmasında müstəsna xidmətləri olmuşdur. Onun rəhbərliyi dövründə metropolitenin 14 stansiyası tikilib istifadəyə verilmişdir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin “Bakı metropoliteninin perspektiv inkişafı ilə bağlı bəzi tədbirlər haqqında” 2008-ci il 10 noyabr tarixli sərəncamı ilə sərnişin nəqliyyatı sistemini təkmilləşdirmək və şəhər nəqliyyatında hərəkətin gərginliyini azaltmaq məqsədilə “Bakı metropoliteninin 20 illik inkişafının Dövlət Proqramı” təsdiq edilmiş, yeni perspektiv sxem hazırlanmış və icrasına başlanmışdır.

Dövlətimizin başçısının 29 oktyabr 2006-cı il tarixli sərəncamı ilə hər il 8 noyabr metro işçilərinin peşə bayramı günü kimi qeyd edilir.

Son illər tikilib istifadəyə verilmiş və müasir üslubda bərpa edilmiş metro stansiyaları özünün mükəmməl arxitekturası ilə Bakının memarlıq ənənələrini daha da zənginləşdirir, əsl mədəniyyət abidəsi kimi şəhərə yaraşıq verməklə yanaşı, ilk növbədə, çöxmilyonlu paytaxt sakinlərinin rahat və təhlükəsiz gediş-gəlişini təmin edir.

Yeraltı metro səltənətində çalışanların və minlərlə insanın təhlükəsizliyinin təmin olunmasında polislərimizin rolu danılmazdır.Yerin üstündə olduğu kimi, “yerin altında” da onlar gecəli-gündüzlü xidmət aparırlar. Təbii haldır ki, böyük bir insan axını olan yerdə neqativ hallara da rast gəlmək mümkündür. Amma polislərimiz hər zaman olduğu kimi, metroda da vətəndaşın yanında, cinayətə meyilli şəxslərin qarşısındadırlar.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# KİKBOKSÇULARIMIZDAN DAHA BİR QƏLƏBƏ

**Oktyabrın 16-dan 26-dək Bosniya və Herseqovinyada kikboksinq üzrə növbəti dünya çempionatı keçirilib. Bu yarışda Azərbaycanın milli komandası da iştirak edib.**

Yığma komandamızın tərkibində ölkəmizin 22 ən güclü kikboksçusu təmsil olunub. İdmançılarımız bu yarışda ümumilikdə 9 medal qazanıb.

Millimizin heyətində təmsil olunan DİN İdman Cəmiyyətindən Eduard Məmmədov, Ramal Aslanov qızıl, Məhəmməd İmanov gümüş, Emil Hümbətov bürünc medal qazanıblar.

Bu qələbə münasibəti ilə idmançılarımızı qəbul edən DİN İdman Cəmiyyətinin sədri, Olimpiya, dünya, Avropa çempionu Zemfira Meftaxetdinova onları təbrik edərək daha böyük qələbələr, yeni nailiyyətlər azulayıb.



# TƏMSİLÇİMİZ UĞUR QAZANDI




**Noyabrın 1-dən 4-dək Rusiya Federasiyasında yeniyetmələr arasında cüdo üzrə V Beynəlxalq turnir keçirilib. Bu yarışda ölkəmizin yığma komandası da iştirak edib.**

Millimizin heyətində təmsil olunan DİN İdman Cəmiyyətinin yetirməsi Elnur Məmmədli üçün də bu yarış uğurlu olub. Təmsilçimiz 55 kiloqramadək olan idmançıların yarışında keçirdiyi görüşlərdən qalib ayrılaraq, yarımfinalda erməni rəqibini məğlub edib.

Finala yüksələn cüdoçumuz gümüş medal qazanıb.

*Zeyni Hüseynov,*
*polis leytenantı*



# PEŞƏKAR OLMAQ ÜÇÜN

**Oktyabrın 14-dən 26-dək Polis Akademiyasının əyani fakültəsi üzrə təhsil alan kursantların atəş, döyüş, fiziki hazırlığının daha da artırılması, hərbi-bilik və bacarıqlarının təkmilləşdirilməsi, döyüş ruhunun yüksəldilməsi məqsədilə hərbi təlimlər keçirilib.**

Təlimlərdə Hərbi kafedranın müəllim heyəti tərəfindən “Xüsusi-taktiki hazırlıq”, “Atəş hazırlığı”, “Sıra hazırlığı” fənləri üzrə odlu silahın, xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri, istifadəsi və qorunub-saxlanılması, habelə təhlükəsizlik qaydalarına riayət olunması məşq etdirilib. Məşğələlər DİN-in Daxili Qoşunlarının Qaradağ rayonunda yerləşən Qaraheybət Təlim Mərkəzində "Kalaşnikov" avtomatından atış tapşırıqlarının yerinə yetirilməsi ilə yekunlaşıb.

Polis Akademiyası Hərbi kafedrasının rəisi, polis polkovniki Hacı Aslanov bu cür təlimlərin DİO əməkdaşlarının, hər bir kursantın və dinləyicinin silahdan istifadəetmə bacarığını daha da formalaşdırdığını bildirib.

*T.Əlizadə*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ, NÖVBƏTÇİ HİSSƏLƏRİ İDARƏETMƏ XİDMƏTİNİN "102" XİDMƏTİ-ZƏNG MƏRKƏZİNDƏ VAKANT OLAN KİÇİK RƏİS HEYƏTİ VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə yaşı 20-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), Bakı şəhərində yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi və fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali hüquq təhsilli və xarici dillərdən birini sərbəst bilən şəxslərə üstünlük veriləcək.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə ilkin olaraq 750 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaq.

İştirak etmək istəyən şəxslər 2019-cu ilin oktyabr ayının 25-dən noyabr ayının 10-dək **mia.gov.az./?/az/content/29915/** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:(012) 590-97-52 şəhər, 17-52 daxili.**

***Daxili İşlər Nazirliyi***

# BİR MƏQSƏD, BİRGƏ FƏALİYYƏT



***Şəxsi heyətin gündəlik xidməti gündəlik nəzarət, tələbkarlıq, diqqət və qayğı tələb edir.***

***Hacıqabul RPŞ-nin xidmət üzrə rəis müavini, polis polkovnik-leytenantı Rüfət Quliyev və şəxsi heyət üzrə rəis köməkçisi, polis polkovnik-leytenantı Kənan Zeynalov da elə birgə fəaliyyəti bu istiqamətdə qururlar.***

*Ü.Muradov*

# DAXİLİ İŞLƏR NAZİRLİYİNİN VƏ BAŞ PROKURORLUĞUN MƏTBUAT XİDMƏTLƏRİNİN MƏLUMATI

Xəbər verildiyi kimi, bu il sentyabr ayının 29-da kütləvi informasiya vasitələrində Bakı Şəhər Baş Polis İdarəsinin Mətbuat xidmətinin rəisi, polis mayoru Elşad Hacıyevin “facebook” sosial şəbəkəsində “Evez Vahidoviç” adlı sosial şəbəkə istifadəçisi tərəfindən ölümlə təhdid olunmasına dair informasiyalar yayılmışdır.

Belə ki, “Evez Vahidoviç” adlı sosial şəbəkə istifadəçisi “facebook” sosial şəbəkəsində özünə məxsus səhifə vasitəsilə E.Hacıyevin öldürülməsinə görə 10 min manat məbləğində pul mükafatı verəcəyini vəd etmişdir.

Qeyd olunan hərəkətlərdə öldürməklə hədələmə əməlinin tərkib əlamətləri olduğundan fakta görə Bakı Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 134-cü (öldürməklə hədələmə) maddəsi ilə cinayət işi başlanılaraq zəruri və təxirəsalınmaz istintaq-əməliyyat tədbirləri həyata keçirilmişdir.

DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində sosial şəbəkədə qeyd olunan statusları yazan şəxsin Bakı şəhər sakini, 1984-cü il təvəllüdlü Fərid Quliyev olması müəyyən edilmiş və o, saxlanılmışdır.

Yaşadığı evə baxış zamanı oradan 1 ədəd tək lüləli yivsiz ov tüfəngi və “Makarov” tipli tapançaya aid 4 ədəd patron aşkar olunaraq götürülmüşdür.

İlkin dindirmə zamanı F.Quliyev qonşusu Əvəz Muxtarovun 2017-ci ildə 50 manat pulunu alıb qaytarmadığına görə qisasçılıq zəminində onun adına saxta profil açaraq həbsinə nail olmaq üçün qeyd olunan məzmunda paylaşım etdiyini etiraf etmişdir.

Nərimanov Rayon Məhkəməsinin qərarı ilə F.Quliyev barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçilmişdir.

Hazırda iş üzrə zəruri istintaq əməliyyat tədbirləri davam etdirilir.

# MARAQ DÜNYASI

**Müxtəlif heyvanlar haqda biologiya dərslərində belə eşitmədəyiniz maraqlı faktlarla siz də tanış olun.**

Fillər insanın səsi ilə onun cinsini, yaşını və etnik mənsubiyyətini müəyyən edə bilir.

Köpək balıqları doğulduqdan dərhal sonra analarına yem olmamaq üçün onlardan uzağa üzür.

Ərincəyə yediyi 1 yarpağın həzmi üçün bir ay tələb oluna bilər. Yerə isə onlar həftədə bir dəfə ehtiyac yarandıqda düşür.

Bəzi tısbağalar suyun altında nəfəs ala və qışı orada keçirə bilir.

Astagəl lori zəhərli primatların yeganə növüdür. Onların dişləməsi insanın anafilaktik şok keçirməsinə və hətta ölümünə səbəb ola bilər.

Şimal maralının gözləri fərqli mövsümlərdə rəngini qızılıdan göyə dəyişir.

İnsanlarda 9 minə yaxın, itlərdə isə 1700-ə yaxın dad reseptoru var. Bununla belə, itlər ətin növlərini seçə bilmir.





Dünyada ən qalın xəz çay samurundadır. Onların bədənlərinin hər kvadrat santimetrində 1 milyonadək tük var. Xəz iki qatdan ibarətdir və bu, dərinin yanında hava qatının saxlanılmasına xidmət edir. Bununla da dəri islanmır.

Sən demə, dələlərin güclü analıq instinkti var. Qvelf Universitetində aparılan araşdırma göstərib ki, dələlər mərhum ailə üzvlərinin yetim qalan balalarını da qəbul edə bilər.

Lester Universitetinin Psixologiya Məktəbinin tədqiqatçılarının sözlərinə görə, sakit musiqi dinləyən inəklər daha çox süd verir.

Əgər dəvəquşu təhlükə hiss edirsə, o, başını qumun içində gizlətmir, yerə yıxılır və sakit uzanır.

Kvokkalar bərabər əylənməyi sevir. Digər məməlilərdən fərqli olaraq, onlar, adətən, yemək və ya əks cinsə görə bir-biri ilə mübarizə aparmır.

*Ruhiyyə Əliyeva*

# TƏCRÜBƏLƏRİNİ SƏXAVƏTLƏ BÖLÜŞÜRLƏR

**Bu gün ölkəmizdə gənclərə, onların sağlamlığına, idmana dövlət səviyyəsində xüsusi qayğı və diqqət göstərilir. Yaradılan şəraitdən həmkarlarımız da maksimum dərəcədə yararlanmağa, xidmətdə olduğu kimi, idmanda da öz sözlərini deməyə çalışırlar. Bunun nəticəsidir ki, idmançı polislərimiz müxtəlif mötəbər yarışlarda, dünya və Avropa çempionatlarında bayrağımızı ucaldır, himnimizi səsləndirirlər.**



Quba Rayon Polis Şöbəsində xidmət edən **polis leytenantı Mikayıl Rüstəmov, polis serjantı Atakişi Ağakişiyev və polis sıravisi İsaməddin Əskərov** belə əməkdaşlardandırlar. Hər üç əməkdaş nümunəvi xidmətləri ilə yanaşı fiziki hazırlıq səviyyəsinə görə də fərqlənirlər.

Polislərimizin nailiyyətləri də çoxdur. Belə ki, 24 yaşlı Mikayıl Rüstəmov idmanın



akrobatika növü üzrə idman ustası adına namizəddir. Uşaq yaşlarından idmana marağı olan zabitimiz ilk qələbəsini də məhz məktəbli vaxtlarında, ikinci sinif şagirdi olan zaman qazanıb. M.Rüstəmov dəfələrlə Azərbaycan və rayonlararası keçirilən çempionatlarında iştirak edib, doqquz dəfə respublika çempionu olub.

PPXB-də xidmət edən Atakişi Ağakişiyev idmanın Kyokuşinkay Karate növü ilə məşğuldur. Qara kəmər sahibi olan polis əməkdaşı 2002-ci ildən ölkəmizdə keçirilən müxtəlif yarışlarda iştirak edib, ikiqat respublika çempionudur. Bir çox yarışlarda da müxtəlif mükafatlar qazanan təmsilçimiz 2010-cu ildə Rusiya Federasiyasında baş tutan "Şimali Qafqaz Çempionatı"ndan Vətənə qızıl medal və kubokla qayıdıb.

PPXB-in digər əməkdaşı İsaməddin Əskərov uzun illərdir ki, boksla məşğul olur. O, digər həmkarları kimi dəfələrlə zona birinciliklərində, ölkə və beynəlxalq yarışlarda yüksək nəticələr göstərərək müxtəlif mükafatlara layiq görülüb. Bundan əlavə, polis əməkdaş-



ları asudə vaxtlarında mütəmadi olaraq, rayondakı orta ümumtəhsil məktəblərində, idman klublarında fiziki hazırlıq dərslərində fəal iştirak edərək, şagirdlərə uşaq yaşlarından elmə və idmana maraq göstərməyi, gələcəyin savadlı və fiziki cəhətdən sağlam, layiqli vətəndaşları olmaları üçün hər zaman öz üzərlərində çalışmalarının zəruriliyini bildirir, fiziki hazırlıq dərslərində yeniyetmələrə təcrübələrini bölüşür, idmanın incəliklərini öyrədirlər.

*Natiq Abdullayev,*
*Nizam Həmidov*

# "XƏZRİ" sizi gözləyir!




**Qeyd:** 1. "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmətkeçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

2. Daxili Qoşunların hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) qanunvericiliklə müəyyən edilmiş əsaslarla Mərkəzə yollayış almaq hüququna malikdirlər.

3. Bir günlük xərc tək polis əməkdaşı üçün 22,50 manat (iki nəfərlik nömrəni tək tutduqda 37,50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 67,50 manat, özü və 6-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 62,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 90 manat və onlarla birgə 6-12 yaşadək uşağa əlavə yer verildikdə 115 manat təşkil edir.

4. 6 yaşadək uşaqların qalması ödənişsizdir.

5. Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, akvaparkdan, trenajorlardan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

**Daxili İşlər Nazirliyinin "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 2-ci mövsüm üzrə 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il tarixlərə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metro stansiyasından 171 nömrəli avtobusla gəlmək olar.**
**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51;**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 17 sentyabr 2019-cu il - 31 may 2020-ci il (2 nəfərlik standart otağın güzəştsiz qiyməti : iki nəfər qaldıqda 180 manat, bir nəfər tək qaldıqda 150 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 22,50 manat | 37,50 manat |
| Onun ailə üzvü (50% güzəştlə) | 45,00 manat | 75,00 manat |
| Polis əməkdaşı ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 25,00 manat | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 90,00 manat | 150,00 manat |
| Valideyni ilə birgə 6-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 50,00 manat | |
| 12 yaşdan yuxarı şəxsə yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 70,00 manat | |

**2020-ci ilin I yarısı üçün "Mübariz keşikdə"yə öz qəzetinizə abunə olmağa tələsin!**

**Oktyabrın 21-dən noyabrın 2-dək Rusiya Federasiyasının Krasnodar vilayətinin Anapa şəhərində yerləşən "Smena" Ümumrusiya Uşaq Mərkəzində MDB-yə üzv olan ölkələrdən Azərbaycan, Belarus, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan, eləcə də Rusiya Federasiyasının 38 regionundan nümayəndə heyətlərinin qatıldığı "Gənc Yol Hərəkəti İnspektoru" hərəkatının 14-cü dövlətlərarası festivalı keçirilib.**

Tədbirdə ölkəmizi Baş Dövlət Yol Polisi İdarəsinin Yol hərəkətinin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqə şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rüfət Quliyev və paytaxtın 245 nömrəli tam orta məktəbin müəllimi Məlahət Ağayevanın müşayiəti ilə şagirdlər - Ayan Həmidova, Nurlan Məlikzadə, Zeynal Nəzirli və Nigar Məlikovadan

# "YOL POLİSİNİN GƏNC KÖMƏKÇİLƏRİ" FESTİVALDA İŞTİRAK ETDİLƏR

ibarət "Yol Polisinin Gənc Köməkçisi" dəstəsinin üzvləri təmsil ediblər.

Festival iştirakçıları arasında öz fəallıqları ilə seçilən təmsilçilərimiz yol hərəkəti qaydalarına dair bilik müsabiqələri və viktorinalarda yarışıb, yol hərəkəti təhlükəsizliyinin mənimsənilməsinə həsr edilmiş oyunlarda iştirak edib, müxtəlif intellektual, bədii və idman müsabiqələrinə, rəqs və teatral bacarıqlara həsr olunmuş "ustad dərsləri"nə qatılaraq fərasətlərini nümayiş etdiriblər.

"Açıq mikrofon" formatında keçirilmiş tədbir zamanı uşaqlar yol hərəkəti təhlükəsizliyinə aid müzakirələr apararaq maraqlı təkliflərlə cıxış edib və bu sahədə qazandıqları müsbət təcrübəni həmkarları ilə bölüşüblər.

"Yol Polisinin Gənc Köməkçisi" dəstəsi yol hərəkəti təhlükəsizliyinin təbliğinə həsr olunmuş beynəlxalq yarışlarda dəfələrlə ölkəmizi layiqincə təmsil edərək MDB-yə üzv olan dövlətlərin nümayəndə heyətləri arasında birincilik qazanıblar.

*N.Cavadov,*
*polis mayoru*

# Oktyabrın 30-dan noyabrın 5-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 107 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 65 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 159, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 1, borclu şəxs qismində axtarışda olan 90 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 20 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 27 nəfər ölmüş, 17 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 50 fakt müəyyən edilmişdir.

# DÜNYAYA PƏNCƏRƏ

Avstriya hüquq-mühafizə orqanlarının rəhbərliyi ilə həyata keçirilən beynəlxalq əməliyyat virtual məkanda fırıldaqçılıqla məşğul olmaqda şübhəli bilinən 60 nəfərin həbs edilməsinə imkan verib. Bu barədə Avropa Polis Agentliyindən (Avropol) məlumat verilib.

"Əməliyyat fırıldaqçılıqla məşğul olan, xüsusən də müxtəlif platformalarda qanunsuz əməliyyatlar həyata keçirən və oğurlanmış kredit kartı məlumatlarından internetdə alış-veriş etmək üçün istifadə edən cinayət şəbəkələrinə qarşı olub", - təşkilatdan bildiriblər.

Əməliyyata Kolumbiya və 18 Avropa ölkəsi, o cümlədən Böyük Britaniya, Almaniya və Fransa qatılıb. Şübhəlilər sentyabrın 23-dən oktyabrın 4-dək həbs olunub.

"Altı min beş yüzdən çox fırıldaqçılıq əməliyyatı aşkar edilib, 40 evdə axtarışlar aparılıb və 60 nəfər həbs olunub", - təşkilatdan vurğulayıblar.

Kibercinayətkarların fəaliyyəti nəticəsində vurulan zərər, ilkin məlumata görə, 5 milyon avro təşkil edib.

*****

***Daşkənd Rayon Polis şöbələri izdiham içərisində üz tanıyan kameralarla təchiz olunmuş avtobuslar alıb. 360 dərəcə kameralar obyektivə düşən vətəndaşları müəyyən edə bilir və sistemin verilənlər bazası ilə inteqrasiyası sayəsində işçilər tez bir zamanda kameraya düşənləri tanıya bilirlər. Polisdən bildiriblər ki, "bu da öz növbəsində yoldan keçən izdihamda axtarışda olanların müəyyənləşdirilməsinə kömək edir".***

***Əlavə olunub ki, cihaz cinayətkarlığın qarşısını almaq və cinayətkarlığa qarşı mübarizə məqsədilə istifadə ediləcək.***

***Daşkənd Şəhər Polis İdarəsinin rəis müavini Bəymurad Abdullayev avtobusların açarlarını Rayon Polis idarələrinin rəhbərlərinə təqdim edib. Avtobuslar eyni zamanda GPS-lə təchiz olunublar ki, bu da yaxınlıqda rəsmi nəqliyyat vasitələrinin harada yerləşdiyini görməyə və yaxınlıqda törədilən cinayətlər barədə məlumat ötürməyə imkan verir.***

***Qeyd edək ki, eyni zamanda, oktyabr ayında Bişkekdə və Nur Sultanda da üz tanıma sistemindən istifadə etmək qərarına gəliblər.***

*****

İsveçin hüquq-mühafizə orqanları şifrələnmiş rabitə əlaqəsini ələ keçirmək üçün şübhəli cihazlara casus proqramı quraşdırmaq səlahiyyətinə yiyələnib. Bu barədə Daxili İşlər naziri Mikael Damberq məlumat verib.

Onun sözlərinə görə, şifrələnmiş rabitə əlaqəsini ələ keçirmək üçün polisin hüquqi və texniki imkanlarla təmini prioritet məsələ olub. Nazir izah edib ki, "Signal" və "WhatsApp" kimi xidmətlərdən istifadə edərək öz fəaliyyətlərini quran cinayətkar qruplar texniki baxımdan polisdən bir addım öndə idilər. O bildirib ki, son bir neçə ildə hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən ələ keçirilmiş bütün rabitə əlaqələrinin 90%-i şifrələnib.

*C.Natiq*

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.724
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00